2025.- 4 oktyabr, №179.- S.8.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



# ŞƏNBƏ ÜÇÜN NƏZM







*İntiqam Yaşar*

## Bir udum vətən

Bu sərçələr yem dalınca
Tanrının yanından eniblər
yanıma.
Son ümid, son güman kimi
Qonublar eyvanıma.

Hamı bir vaxt sərçə olur,
Hamı uçur dən dalınca.
Bir parça torpaq dalınca,
Bir udum vətən dalınca.

Düşür özündən xəbərsiz,
Lələk-lələk qanadları.
Yolur yağış qanadları,
Yolur külək qanadları.

Ürəyimə daman kimi,
Nə yaxşı ki, dən səpmişəm.
Məni görüb uçardılar,
Dəni dünəndən səpmişəm.

Hamı bir vaxt sərçə olur.
Hamı uçur dən dalınca.
Bir parça torpaq dalınca,
Bir udum vətən dalınca.

## Hamı ürəyinə çəkilib

Nə beş il, nə on il, nə də ki,
yüz il,
Bəlkə də daha çox,
bəlkə də min il.
Ara məsafimiz uzanır yaman,
Darıxır sinəmin altdakı dərd
də,
Darıxır üzümdə qırışlar belə,
Darıxır bu yorğun baxışlar
belə.
Ağzına su alıb həyət-baca da,
Ağzına su alıb qardaş-bacı da.
Hamı şirin-şirin
darıxmağında,
Hamı ürəyinə çəkilib susub.

## Onda hər şey tamam başqaydı

Onda ümidlərə söykənmək
var idi,
Onda arzulardan iki əlli
tutmaq olurdu.
Onda hər şey tamam
başqaydı,
Onda bir təbəssümə hər dərdi
unutmaq olurdu.
Onda hamıdan tez oyanmaq
hünər idi,
Onda günəş daha erkən
doğardı yer üzünə.
İndi?
İndidən danışma, danışma
dostum,
İndi ayda-ildə bir düşürük
onun izinə.

## Sabahın adamıyıq

Nə sən dünənin adamısan,
nə mən bu günün adamı.
Biz sabahın adamıyıq əzizim,
sabahın adamı.
Dünənin də günahkarıyıq, bu
günün də.
Təkcə, sabaha suçsuzuq.
O da ya qismət, ya gələ, ya
gəlməyə...

## Getmək havası

O nə getmək havası,
Bu nə vida tonuydu?
Görənlər deyərdi ki,
Ta dünyanın sonuydu.

Çox gedənlər görmüşəm,
Çox əlvida nidası.
Sinəmə də düşmür heç,
Ayrılığın havası.

Düşünürəm ki, kaş sən,
Gülə-gülə gedəydin.
Mən də inanmazdım heç,
Gələ-gələ gedəydin.

Daha gecdi, həm də çox,
Bilə-bilə getmisən.
Necə gözəl bilirsən,
Elə, elə getmisən.

## Bütün olanlara əlvida

Bir də bir gün bütün olanlara
əlvida,
Bütün suallara sükut cavabı.
Qulaqlarında gedənlərin ayaq
səsləri,
Divarlarda hıçqırtı izləri.
Unutduğun ürəyinlə baş-başa
səhəri gözləmək.
Bir gözün qapıda, bir gözün
saatda.
"Nə bilirsən, bəlkə gəldi,
nələr olmur ki, həyatda?"

## Bütün ümidlər dümağ geyinir...

Bütün ümidlər dümağ
geyinir,
Tanrıyla hər sabahkı görüşə.
Bütün ürəklər eyni ritmə
aludə,
Bütün ürəklər eyni ahəngə
uymuş.
Hamını eyni arzulardı
əsir-yesir edən,
Hamı da eyni sözdən,
eyni "yox"dan doymuş.